Azərbaycanda 2015-ci ildə keçiriləcək birinci Avropa Oyunlarına hazırlıq sürətlənir

Ölkənin birinci xanımı, Bakıda keçiriləcək birinci Avrorpa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva bu oyunlarla əlaqədar aparılan hazırlıq işləri ilə tanış olmuşdur

Məlum olduğu kimi 2015-ci ildə Bakıda birinci Avropa Oyunları keçiriləcəkdir. Bu tədbir müstəqil Azərbaycan tarixinə böyük və əlamətdar hadisələrdən biri kimi daxil olacaqdır.



Qeyd edək ki, Avropa Oyunları ilk dəfə Avropada yaransa da indiyədək belə oyunlar keçirilməmişdir. Bu oyunların bərpası gələn il Azərbaycanda baş tutacaqdır. Belə ki, hələ 2012-ci ilin dekabr ayında Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə birinci Avropa Oyunlarının Bakıda keçiriləsməsi haqqında qərar qəbul edilmişdir. Avropanın idman olimpiya ailəsi Bakının namizədliyini böyük səs çoxluğu ilə dəstəkləmişdir. Bu, o demək idi ki, Artıq Azərbaycan beynəlxalq aləmdə kifayət qədər nüfuz qazanmış, həmçinin idman ölkəsi kmi tanınmışdır. Eyni zamanda belə bir nüfuz hələ müstəqilliyimizin 20-ci ilində Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilərkən də təsdiq edilmişdir. Artıq ölkəmiz müstəqillik əldə etməsindən qısa bir zaman kəsiyi keçməsinə baxmayaraq dünya miqyasında özünə kifayət qədər etibarlı tərəfdaş və dost qazana bilmişdir.

Əlbəttə ki, bütün bünlar ölkəmiz üzərində daha ciddi məsuliyyət hissi qoyur. Ona görə də Avropa Olimpiya Komitəsi Baş Məclisinin qərarından dərhal sonra, yəni 2013-cü ilin yanvar ayının 17-də Azərbaycanda Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün Təşkilat Komitəsi yarandı. Təşkilat Komitəsinin sədri ölkənin birinci xanımı Mehriban xanım Əliyeva seçildi. Fevral ayının 2-də isə Komitənin ilk iclası keçirildi. Ölkə başçısı cənab İlham Əliyev Azərbaycanın idman tarixi, son illərdə bu sahədə əldə olunan uğurlar haqqında geniş nitq söylədi, birinci Avrorpa Oyunlarına ciddi hazırlıq görülməsi barədə məsləhətlərini verdi. Cənab Prezident nitqində qeyd etdi ki, bəzi ölkələrə Yay Olimpiya oyunlarına hazırlıq üçün 6-7 il vaxt verildiyi halda, bizdə isə hazırlıq işlərinə cəmi 2 il vaxt qalır. Ona görə də ölkədə bu işə daha ciddi yanaşmaq lazım gəlir. Heç şübhə yoxdur ki , biz bu hazırlıq işlərinin öhdəsindən layiqincə gələcəyik.

Təşkilat Komitəsinin ilk iclasından sonra Avropa Oyunlarının keçirilməsinə ciddi hazırlıq görülməyə başlanmış və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiya uğurla davam etməkdədir. İyulun son günlərində cənab Prezident İlham Əliyev Bakı Olimpiya stadionunda tikinti işlərinin gedişi ilə tanış olmuş və işlərin sürətləndirilməsi üçün göstəriş və tapşırıqlarını vermişdir.

Avqust ayının 28-də isə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ölkəmizdə keçiriləcək bu mötəbər tədbirə hazırlıqla əlaqədar inşası davam etdirilən və yenidən qurulan idman obyektlərində görülən işlərlə tanış olmuşdur. Mehriban xanım Əliyeva tanışlığa orijinal layihə əsasında müxtəlif idman oyunları üçün nəzərdə tutulan Bakı Olimpiya Stadionunda tikinti işlərinin gedişi ilə tanış olmaqdan başlamışdır. Burada işlər sürətlə və yüksək keyfiyyətlə aparılır.Tikintidə ən müasir avadanlıq və inşaat materiallarından istifadə olunur. Mükəmməlliyi ilə diqqəti cəlb edən, 70 minə qədər tamaşaçı tutumu olacaq, altımərtəbəli stadionda indiyədək layihə çərçivəsində nəzərdə tutulan tikinti işlərinin əsas hissəsi başa çatmışdır. Burada əsas stadion, məşqlər üçün köməkçi stadion və yardımçı bina, müxtəlif funksiyalı tribunalar və digər infrastruktur tikilir. Ərazidə 3 min 100 yerlik avtomobil parkı da yaradılır. Ətrafda əsaslı abadlıq və geniş yaşıllaşdırma işləri də aparılacaqdır.

2012-ci ilin noyabrında tammiqyaslı inşasına başlanılan stadionda işlər layihə üzrə nəzərdə tutulduğu kimi gələn ilin fevralında yekunlaşacaq. Beləliklə stadion birinci Avrorpa Oyunlarınadək istifadəyə veriləcəkdir.

Tikinti işlərinin gedişi ilə ətraflı tanış olan Mehriban xanım Əliyeva müvafiq tapşırıq və tövsiyələrini də verdi.

Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Heydər Əliyev adına İdman-Konsert Kompleksində görülən təmir işləri ilə tanış oldu. Ərazisi 46 min kvadratmetr olan kompleksdə təmir işlərinin gələn ilin yanvar ayında başa çatması nəzərdə tutulur.

Mehriban xanım Əliyeva həmin gün paytaxtın mərkəzində, Dənizkənarı Bulvarda yerləşən Bakı İdman Sarayında və Su İdman Sarayında aparılan inşaat işlərinin gedişi ilə də tanış olmuşdur. Bu saraylar da birinci Avropa Oyunlarına hazırlanır. Bakı İdman Sarayında yeniqənqurma işləri yekunlaşmaq üzrədir. Binanın birinci mərtəbəsində yanğın zamanı 12 təxliyyə qapısı nəzərdə tutulub. Dördmərtəbəli binada 6 müasir lift quraşdırılıb. Oturacaqların sayı 1500-dən 1850-ə çatdırılıb. Binada təmir işləri ilin sonunadək başa çatacaqdır.

Su İdman Sarayı üçün 6 hektar torpaq sahəsi ayrılmışdır. Ümumi sahəsi 66 min kvadratmetrdir. Saray Beynəlxalq Üzgücülük Federasiyasının tələblərinə tam cvab verir. Sarayda 3 üzgücülük hovuzu yaradılır. Uzunluğu 50, eni isə 25 metr olacaq əsas hovuz yarışlar üçün nəzfərdə tutulub. İkinci hovuzda isə məşqlər aparılacaqdır. Hündürlükdən suyatullanma hovuzunun uzunluğu isə 25, eni 20 metrdir. İdman yarışlarını 6200 nəfər tamaşaçı izləyə biləcəkdir. Bunlardan başqa sarayda fitnes zalları, SRA mərkəzi, trinojor zalları, restoran, 100 nəfərlik konfrans zalı, ofislər, digər işçi və köməkçi otaqlar fəaliyyət göstərəcəkdir. Sarayın ərazisində 500 yerlik yerüstü avtomobil dayanacağı yaradılacaqdır.

Yerli və xarici şirkətlərin inşa etdiyi Su İdman Sarayının nəzərdə tutulan cədvəl üzrə vaxtında başa çatması nəzərdə tutulur.

İnformasiyanı rəsmi materiallar əsasında hazırladı:
Nadir ATAKİŞİYEV.